# DONGBU STEEL CO., LTD.

**Yüksək dərəcədə aşınmaya davamlı poliefir qatran üzlüklərindən uzunmüddətli istifadəyə zəmanət ("zəmanət") (M-1N01-OK, M-4N01-OK**

DONGBU STEEL CO., LTD. (bundan sonra "DONGBU STEEL) YÜKSƏLİK Azərbaycan şirkətinə (FE0701080 01, FE 070180 02) (bundan sonra a "ALICI") zəmanət veririk ki, DONGBU STEEL tərəfindən tədarük edilən sinklənmiş polad təbəqələr (ƏMTƏƏ) üzərində yüksək dərəcədə aşınmaya davamlı poliefir qatranla üzlənmiş səth ("Boya") aşağıdakı xarici davamlılıq normalarına cavab verəcək:

Koreya Respublikasında gətirildiyi tarixdən etibarən Azərbaycanın daxili ticarət bazarında

**Qalınlığı 0.50mm – yeddi (7) il müddətinə**
**Qalınlığı 0.47mm – altı (6) il müddətinə**
**Qalınlığı 0.40mm – beş (5) il müddətinə**

şaquli vəziyyətdən maksimum 75˚ maillikdə Alıcı tərəfindən quraşdıran və ya istifadə olunan əmtəələr üzərindəki Boya:

A. ASTM_D-659-da təsvir edilmiş prosedura ilə müəyyən olunan ASTM_D-659 nömrə altı (6) normasından artıq tökülməyəcək;
B. B. ASTM-d-2244-də təsvir edilmiş prosedura ilə müəyyən olunan və hər cür çirk, tabaşir, oksidləşmiş nazik təbəqə, yağ, mazut və ya digər xarici çirkləndiricilərdən azad təmiz səthlər üzərində həyata keçirilmiş rəng ölçülərindən əsaslanan 7E (Hunter) vahidlərin sayından artıq solmayacaq; lakin rəng solması və ya rəng dəyişiklikləri bərbər şəkildə açılmamış səthlər arasında eyni cür olmaya bilər.
C. C Adı gözlə müşahidə vasitəsilə aşkar görünə biləcək dərəcədə qırılmayacaq, lakin Əmtəələrin qəliblənməsi, quraşdırılması və ya hazırlanması zamanı Boyada baş verən hər hansı çat, qırılma və ya digər qüsurlar bu Zəmanətə daxil olmayacaq.

BU ZƏMANƏTİN ŞƏRT VƏ MÜDDƏALARI AŞAĞIDAKI KİMİ MÜƏYYƏN OLUNUR:

1. Bu Zəmanətdə müstəsna olaraq nəzərdə tutulur ki, DONGBU STEEL şirkəti öz mülahizəsinə əsasən ya (i) Əmtəələri təkrar rəngləyəcək, ya (ii) boyası qüsurlu olan Əmtəələri pulsuz dəyişdirəcək (lakin quraşdırmayacaq), ya da (iii) belə təkrar rəngləmə və ya dəyişdirmə Alıcı tərəfindən həyata keçirildiyi təqdirdə onun xərcləri üçün kompensasiya ödəyəcək; lakin belə kompensasiyanın məbləği heç bir halda Əmtəənin ilkin alış qiymətindən çox olmamalıdır;
2. Təkrar rənglənmiş və ya dəyişdirilmiş hər hansı əmtəə yalnız orijinal Əmtəələrə tətbiq oluna bilən müddətsiz Zəmanət şərtləri üzrə bu Zəmanətin subyekti olacaq;
3. DONGBU STEEL şirkəti Əmtəələrdə hər hansı nöqsan aşkar edildiyi təqdirdə onun aradan qaldırılmasına yazılı icazə verməyincə üçüncü şəxslər tərəfindən belə nöqsanların aradan qaldırılması üçün görülən işlərin dəyəri xüsusunda heç bir cavabdehlik daşımayacaq;
4. DONGBU STEEL şirkəti Boyası qüsurlu Əmtəələr ucbatından üçüncü şəxslərin məruz qala biləcəyi hər hansı xüsusi, birbaşa və ya dolayı itkilərə görə heç bir halda məsuliyyət daşımayacaq;
5. DONGBU STEEL şirkəti bu Zəmanəti yalnız və yalnız ALICIYA şamil edir bu Zəmanət başqasına ötürülə və həvalə edilə bilməz. ALICI, eləcə də onun agentləri və ya nümayəndələri (təmsilçiləri) bu Zəmanətin ALICIDAN başqalarına da şamil olunduğunu iddia, ifadə və ya niyyət etməyəcək, nə də öz müştəri kontingentinə, distributorlarına ,

icraçılarına, podratçılarına və ya digər bir şəxsə icazə verməyəcək ki, bunu iddia, ifadə və ya niyyət etsin. ALICI hər hansı üçünü tərəfi məcbur edəcək ki, bu cür təhriflərə son qoysun. Bu şərt hazırkı Zəmanətin maddi şərtini təşkil edəcək və onun ALICI tərəfindən pozulması ilə DONGBU STEEL şirkəti avtomatik olaraq öz müqavilə öhdəliklərindən azad olunacaq;

6. DONGBU STEEL şirkəti, hazırkı Zəmanət şərtləri çərçivəsində artıq qəbul etmiş olduğu sifarişlərlə bağlı hallar xaricində, bu Zəmanətə istənilən vaxt öz mülahizəsinə əsasən xitam vermək və bu zaman yazılı bildiriş təqdim etməmək hüququna malikdir;
7. Qüsurlu olduğu iddia edilən Əmtəələri müayinə etmək üçün DONGBU STEEL şirkətinə lazımi şərait yaradılacaq;
8. Qüsur ALICININ diqqətinə çatdırıldıqdan sonra ALICI DONGBU STEEL şirkətinin sifariş nömrəsini, rulon nömrəsini, faktura nömrəsini, *burada* barəsində iddia qaldırılan Əmtəələrin yükləmə tarixini və quraşdırılma tarixini göstərməklə otuz(30) gün müddətində DONGBU STEEL şirkətini yazılı surətdə xəbərdarlıq etməlidir;
9. DONGBU STEEL şirkətinin sifariş nömrəsiniN, rulon nömrəsiniN, faktura nömrəsiniN, burada barəsində iddia qaldırılan Əmtəələrin yükləmə tarixinin və quraşdırılma tarixinin dəqiq müəyyən edilməsinə yalnız və yalnız ALICI cavabdehdir;
10. Bu Zəmanət yalnız Azərbaycanda istifadə olunan Əmtəələrə şamil olunur və məxsusi olaraq burada müəyyən edilmiş zəmanət şərtləri ilə məhdudlaşır;
11. Bu Zəmanət yalnız normal hava şərtlərinə və okeandan 1(bir) mil məsafədə mövcud olan müxtəlif ətraf-mühit şərtlərinə açılmış Əmtəələrə şamil olunur;
12. Bu Zəmanət yalnız normal hava şərtlərinə və okeandan 1(bir) mil məsafədə mövcud olan müxtəlif ətraf-mühit şərtlərinə açılmış Əmtəələrə şamil olunur;
13. Bu Zəmanət təbii fəlakətin, düşən obyektlərin, xarici qüvvənin, partlayışların, yanğın, qiyam (üsyan), mülki iğtişaşların, hərbi əməliyyatların, radiasiyanın, zəhərli qazların və ya tüstülərin, açıq havada və ya atmosferdə olan kimyəvi maddələrin və ya xoşagəlməz yad cisimlərin təsirinə məruz qalan hər hansı Əmtəənin xarici davamlılıq normalarında mövcud olan hər hansı qüsur (nöqsan) və ya pozuntular öz əhatə dairəsindən məxsusi olaraq istisna *edir;* və
14. Bu Zəmanət aşağıdakılara şamil edilməyəcək və ya onları özündə ehtiva etməyəcək;
    a. Əmtəələrin quraşdırılmazdan qabaq qeyri-düzgün saxlanması, yüklənib-boşaldılması, emalı və ya qəliblənməsi üzündən yaranan rütubətin və ya Əmtəə və ya Boya üçün ziyanlı olan digər çirklənmələrin səbəb olduğu Əmtəələrə və ya Boyaya dəyən birbaşa və ya dolayı ziyanlar;
    b. Birbaşa və ya dolayı olaraq Əmtəələrin quraşdırılmazdan qabaq qeyri-düzgün saxlanması, yüklənib-boşaldılması, emalı və ya qəliblənməsi səbəbindən əmələ gələn kondensasiya nəticəsində suyun Əmtəələrə və ya Boyaya vurduğu ziyanlar;
    c. Birbaşa və ya dolayı olaraq Əmtəələrin yüklənib-boşaldılması, emalı, qəliblənməsi və /və ya quraşdırılması nəticəsində Əmtəələrə və ya Boyaya dəyən ziyanlar.

DONGBU STEEL ŞİRKƏTİ TƏRƏFİNDƏN VERİLƏN BU ZƏMANƏT ALICININ YEGANƏ HÜQUQİ MÜDAFİƏ VASİTƏSİ OLUB, SATIŞ QABİLİYYƏTİ VƏ ƏLAHİDDƏ MƏQSƏD ÜÇÜN YARARLILIQ ŞƏRTLƏRİ DƏ DAXİL OLMAQLA, HƏM DƏ BUNLARLA MƏHDUDLAŞMADAN, BÜTÜN DİGƏR NƏZƏRDƏ TUTULAN VƏ YA İFADƏ EDİLƏN, YAZILI VƏ YA ŞİFAHİ ZƏMANƏT ŞƏRTLƏRİNİ MƏXSUSİ OLARAQ ÖZÜNDƏ EHTİVA EDİR; DONGBU STEEL ŞİRKƏTİNİN YUXARIDAKILARDAN BAŞQA HEÇ BİR ƏLAVƏ ÖHDƏÇİLİYİ OLMAYACAQDIR.

DONGBU STEEL CO., LTD.
KEYFİYYƏTİ İDARƏETMƏ QRUPU